# Türkiyənin baş konsulu:

# "Azərbaycana və Qazaxıstana istənilən köməyə hazırıq"

"Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində baş verən faciəli hadisəyə görə Türkiyə və Aktauda fəaliyyət göstərən İran, Özbəkistan və Türkmənistan baş konsulları Azərbaycanın yanındadırlar.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Türkiyənin Aktaudakı baş konsulu Sabri Alptekin bildirib.

O qeyd edib ki, hazırda Türkiyənin Baş Konsulluğu aparılan araşdırma ilə bağlı azərbaycanlı həmkarı ilə əlaqə saxlayır. Sabri Alptekinin sözlərinə görə, hadisə baş verəndən 8 dəqiqə sonra Qazaxıstanın müvafiq qurumları hadisəyə təcili müdaxilə ediblər. Nəticədə itki sayı az olub.

"Dünən xəstəxanadakı yaralıların vəziyyəti ilə maraqlandım. Eyni zamanda, Azərbaycandan Aktauya gələn nazirlərlə görüşdüm", - deyə o qeyd edib.

Türkiyə baş konsulu bildirib ki, ölkəsi qardaş dövlət olaraq istər Azərbaycana, istərsə də Qazaxıstana lazımi köməyə hazırdır.

Azərbaycan. - 2024.- 27 dekabr (№ 287).- S. 4.